**UOT 330.567**

***Nurlan Y. İMAMƏLİYEV***
***Baki Avrasiya Universiteti, magistrant***
***Email-nurlan200047@gmail.com***

***Elmi rəhbər: i.e.d. Vilayət İ. İSMAYILOV***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***E-mail: ismaylov1953@mail.ru***

# MÜVAFİQ İNDİQATORLARIN TƏTBİQİ İLƏ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Tədqiqatın məqsədi –** Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsində müvafiq indiqatorların tətbiq edilməsinin əsas üstünlüklərinin açıqlanmasından ibarətdir. Burada əhalinin həyat səviyyəsini əks etdirən komponentlərin qiymətləndirilməsinə yeni metodiki yanaşma əsaslandırılmışdır.

**Tədqiqatın metodologiyası** – Tədqiqat işində müqayisəli təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi ilə bağlı nəzəri-konseptual və praktiki yanaşmaların formalaşdırılmasıdır. Əldə edilmiş nəticələrdən bu istiqamətdə problemlərin tədqiqi zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Araşdırma göstərir ki, Azərbaycan bölgələrində əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti arasında fərq çoxdur və bu göstəricinin qiyməti bir sıra şəhərlərdə digər bölgələrə nisbətən yüksəkdir. Bu göstəricinin qiymətinin qeyd edilən şəhərlərdə yüksək olması əhalinin işləmək məqsədi ilə digər bölgələrdən bu şəhərlərə axınına şərait yaradır və beləliklə də urbanizasiya prosesinin sürətlənməsinə təsir göstərir. Fikrimizcə, əhalinin həyat səviyyəsi üzrə tədqiqatların genişləndirilməsində, həmçinin ölkə üzrə bu göstərici indiqatorlarının ölçülməsində ixtisaslı cəmiyyətin müzakirəsinə ehtiyac vardır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** Əhalinin həyat səviyyəsini əhatə edən minimum zəmanətlər və standart orientlərə əsasən normativ kriteriyalar müəyyənləşdirilir və təhlil edilir. Eyni zamanda, müxtəlif ölkələr üzrə əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi problemlərinin həlli ilə bağlı əsaslandırılmış təkliflər irəli sürülür.

***Açar sözlər: əhali, həyat səviyyəsi, minimum zəmanət, sosial standartlar, kriteriyalar, insan kapitalı indeksi, reytinq, qiymətləndirilmə.***

## *Giriş*

Əhalinin həyat səviyyəsi ən mühüm sosial kateqoriyalardan biridir. Əhalinin həyat səviyyəsi dedikdə, onların zəruri maddi nemət və xidmətlərlə təmin olunması, istehlakının faktiki səviyyəsi, bu nemətlərə və xidmətlərə olan rasional və ya ağıllı tələbatının ödənilməsi səviyyəsi başa düşülür. Əhalinin rifah halı dedikdə ölkədə onların maddi nemət və xidmətlərə artan tələbatının normal səviyyədə təmin edilməsi başa düşülür. Müəyyən zaman kəsiyində ev təsərrüfatı üzrə əhalinin orta tələbatının və onun təminedilmə səviyyəsinə uyğun sərvət və xidmətlərinin pulla qiymətləndirilməsi əhalinin həyatının dəyərini ifadə edir.

**Əhalinin həyat səviyyəsinin komponentləri**

Nisbətən geniş mənada "əhalinin həyat səviyyəsi" dedikdə onların həyat, əmək və məşğulluq şəraiti, tələb etdikləri məişət xidmətləri, sağlamlığı, təhsili, təbii yaşayış mühiti və s. başa düşülür (şəkil 1).

Əhalinin həyat səviyyəsini xarakterizə edən kəmiyyət göstəriciləri sisteminə aşağıdakılar aid edilir (şəkil 2):

- ✓ sintetik dəyər göstəriciləri (ÜDM-in real gəlirləri və real əməkhaqqı, yaşayış minimumu və s.);




***Şəkil 1. Əhalinin həyat səviyyəsini xarakterizə edən əsas komponentlər***

*Qeyd: [3-5] əsasında müəlliflər tərtib etmişdir.*

- ✓ əhalinin son istehlakını xarakterizə edən təbii göstəricilər (ərzaq məhsullarının istehlakı, uzunmüddətli istifadə predmetləri ilə təmin olunma, yaşayış sahəsi və s.);
- ✓ həyatın sosial tərəflərini xarakterizə edən göstəricilər (məşğulluq və işsizlik, iş günü və həftəsinin uzunluğu; məzuniyyətlərin müddəti, ömür müddəti və s.);
- ✓ insan potensialının inkişaf indeksi.




***Şəkil 2. Əhalinin həyat səviyyəsinin kəmiyyət göstəriciləri sistemi***

*Qeyd: [3] əsasında müəlliflər tərtib etmişdir.*

Ümumilikdə əhalinin həyat səviyyəsini dörd formada fərqləndirmək olar (şəkil 3):

1. Kifayət səviyyə: bu zaman insanın hərtərəfli inkişafını təmin edən sərvətlərdən kifayət qədər istifadənin təmin olunma səviyyəsi nəzərdə tutulur.

2. Normal səviyyə: bu zaman insanın fiziki və intellektual qüvvəsinin bərpa olunmasını təmin edən və elmi cəhətdən əsaslandırılmış norma üzrə rasional tələbatın təmin edilməsi səviyyəsi nəzərdə tutulur.

3. Kasıblıq səviyyəsi: bu zaman işçi qüvvəsinin təkrar istehsalının aşağı hüdudu kimi isgörmə qabiliyyəti səviyyəsinin saxlanılmasına olan sərvətin tələbatının təmin edilməsi səviyyəsi nəzərdə tutulur.

4. Həddən çox kasıblıq səviyyəsi: bu zaman insanın yalnız həyatda qalmasına olan tələbatı təmin edən bioloji kriteriyasına görə minimum yol verilə bilən sərvət və xidmətlər yığımının təmin edilməsi səviyyəsi nəzərdə tutulur.

Əhalinin həyat səviyyəsinin ən vacib təşkiledici komponentlərinə gəlir, sosial təminat, material-maddi sərvətə olan tələbat, həyat şəraiti, asudə vaxt aiddir. Bu baxımdan insanın həyat şəraiti həyat, əmək və xidmət şəraitləri kimi üç istiqamətə ayrılır. Həyat şəraiti inanların asudə vaxtından səmərəli istifadə ilə əlaqəlidir. Əmək şəraiti sanitar-gigiyena, psixofizioloji, estetik və sosial-psixoloji şəraitləri özündə ehtiva edir. Xidmət şəraitinə əhalinin yaşayış evi ilə təmin edilməsi, onun keyfiyyəti, məişət xidməti xətlərinin, o cümlədən hamam, paltaryuma - təmizləmə, bərbərxana, təmir emalatxanası, müvəqqəti istifadə əşyalarını təmin edən bölmənin və s. inkişafı, ticarətin və ictimai qidalanmanın, ictimai nəqliyyatın, tibbi və təhsil xidmətinin vəziyyəti və s. daxildir.




***Şəkil 3. Əhalinin həyat səviyyəsinin formaları***

*Qeyd: [2, s.34-36; 6, s. 18-20] əsasında müəlliflər tərtib etmişdir*

Bir sıra tədqiqatçılar əhalinin aliciliq qabiliyyətinin qida məhsullarının minimum dəstinin dəyərinə nisbəti istiqamətində apardıqları müqayisəli tədqiqatlarda qeyd edirlər ki, bu göstəricilərin nisbəti 1955-ci ilin səviyyəsinə görə 1960-cı ildə 1,29 dəfə azalmışdır [6, s.18-20]. Həmin tədqiqatçıların fikrincə, müqayisə edilən dövrdə əhalinin alıcılıq qabiliyyətinin azalması süd və süd məhsullarının qiymətinin artması ilə əlaqəli olmuşdur. Digər iqtisadçı alimlərin tədqiqatında qeyd edilir ki, ölkədə bir sıra sənaye məhsullarının qiymətinin düşünülmədən artımı ticarət şəbəkəsində normadan artıq əmtəə ehtiyatlarının toplanması ilə nəticələnir [4, s. 92-99].

Rusiya Həyat Səviyyəsi Mərkəzinin direktoru tədqiqatında qeyd edir ki, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin həllinə regional aspektdən baxılması vacibdir. Çünki bu, əhalinin həyat səviyyəsinin yüksəldilməsini əhatə edən göstəricinin müxtəlif (nəzəri, metodoloji və metodiki) cəhətdən tədqiq edilməsinə əlverişli imkan yaradır [2, s. 34-36].

Əhalinin həyat səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsində fərqli metodoloji yanaşmalar

vardır. Bu metodoloji yanaşmalarda əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi beynəlxalq səviyyədə qəbul edilmiş bir sıra göstəricilər əsasında aparılır ki, bunlara ölkə üzrə minimum yaşayış büdcəsi, bir nəfərə düşən pul gəlirləri, ölkə üzrə orta aylıq əməkhaqqı, əhalinin bir nəfərinə düşən pul gəlirlərinin alıcılıq qabiliyyəti, əhali gəlirləri üzrə kasıblıq səviyyəsi, Cini əmsalı və s. aiddir.

Məqalədə ölkə əhalisinin həyat səviyyəsinin qiymətləndirilməsində yeni metodiki yanaşmanın tətbiqini əhatə edən məsələlərə baxılır və burada aşağıdakı göstəricilərdən istifadənin məqsədəuyğunluğu qeyd edilir:

1. “Həyat səviyyəsi” və sosial standartlar;
2. Beynəlxalq sosial standartların beynəlxalq müqayisədə tətbiq edilməsi;
3. Regionlar üzrə həyat səviyyəsinin qeyri-bərabərliyinin qiymətləndirilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi;
4. Regionların nümunəsində əhalinin həyat səviyyəsi göstəricilərinin qiymətləndirilməsi.

**“Həyat səviyyəsi” və sosial standartlar**

Bu istiqamətdə aparılan müxtəlif tədqiqatlar bilavasitə əhalinin “həyat səviyyəsi” komponentlərinin araşdırılmasını əhatə edir və komponentlər aşağıdakı kimi xarakterizə olunur:

- həyat səviyyəsi özündə şəxsin, sosial qrupların və bütünlükdə cəmiyyətin həyat keyfiyyətinin təmin edilməsi üçün lazım gələn resursların pulla qiymətləndirilməsini əks etdirir;
- həyat səviyyəsi insanın və cəmiyyətin inkişafı və iqtisadi qiymətləndirilməsi ilə təyin edilməklə onu tam şəkildə xarakterizə edir.

Həyat səviyyəsinin sosial standartları [3, s. 20-44] - həyatın norma və idealları sistemi daxil olmaqla insanın peşə və ləyaqətinə cavab verən, insanlarda cəmiyyətin lazımi quruluşuna təsəvvür yaradan dəyərlərdir. Həyat səviyyəsinin sosial standartlar sisteminin işlənilməsində əsas məqsəd əhalinin həyat səviyyəsi normativlərini əks etdirən kriteriyaları müəyyən etməkdən ibarətdir və bunlara aşağıdakılar aiddir:

a) insan, ailə, sosial qrup və bütövlükdə cəmiyyətin inkişaf standartları;
b) əhalinin həyat keyfiyyətinin təmin edilməsi üçün standart resurslar.

**Beynəlxalq sosial standartların beynəlxalq müqayisədə tətbiq edilməsi**

İnsan kapitalının inkişaf konsepsiyasında “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması”, yəni 2020-ci ildə inkişaf etmiş iqtisadiyyat üçün xarakterik olan gəlir səviyyəsi və həyat keyfiyyəti göstəricilərinin əsas məqsədli orientirlərinin əldə olunması nəzərdə tutulmuşdur [1].

Azərbaycanda əhalinin həyat səviyyəsini əhatə edən indiqatorların tətbiqi ilə bu göstərici səviyyəsinin qiymətləndirilməsi vacib məsələlərdən biridir. Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi müqayisə ediləcək ölkələrdə əhalinin rifahının artımı məsələlərinin həllində iqtisadi potensialdan istifadə dərəcəsinin müəyyənləşdirilməsinə imkan verir.

Dünya ölkələri üzrə hər il İnsan Kapitalı İndeksinin (Human Capital Index) reytinq cədvəli Dünya Bankı qrupu (DBQ) tərəfindən hazırlanır. 2020-ci ildə Dünya Bankı qrupu 174 ölkə üzrə İnsan kapitalının inkişafı reytinqini tərtib etmişdir. Belə ki, İnsan Kapitalının İnkişafı Layihəsi (Human Capital Project) çərçivəsində bu reytinq sıralanması dünya ölkələrində və regionlarında insan kapitalının inkişaf səviyyəsini xarakterizə edən birləşmiş göstərici hesab edilir. Layihənin metodologiyasına əsasən, İnsan Kapitalı insanların öz həyatı boyu topladıqları bilik, bacarıq və sağlamlığından ibarətdir ki, bu da onların potensialını cəmiyyətin faydalı və məhsuldar üzvləri kimi həyata keçirməyə imkan verir. İstehsal prosesində insan kapitalı sosial tərəqqinin və uzunmüddətli iqtisadi artımın mühüm resursu kimi çıxış edərək fiziki kapitalı tamamlayır. Bu da öz növbəsində insanlara keyfiyyətli səhiyyə, təhsil, bacarıq və iş yerləri vasitəsilə investisiya qoyulmasını tələb edir. İnsan kapitalının inkişafı Layihəsində qeyd edilir ki, insan kapitalı uzunmüddətli perspektivdə cəmiyyət üçün vacibdir, çünki o, davamlı iqtisadi artımın ən vacib hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Belə ki, bir çox dövlətlərin hökumətləri təhsil və səhiyyə üçün büdcə vəsaitlərinin əhəmiyyətli hissəsini ayırırlar, lakin bir çox hallarda ictimai xidmətlər keyfiyyətsiz olduqlarına görə insan kapitalını formalaşdıra bilmirlər. Çünki bürokratik aparat ağlabatan

siyasəti səmərəli proqramlara çevirmək iqtidarında olmur və ya onu tamamilə əsaslandıra bilmir. Bundan başqa, insan kapitalına investisiyalar illərlə iqtisadi səmərə vermir, ona görə də siyasi xadimlər adətən öz nüfuzunu artırmaq üçün daha sürətli yollar tapmağa çalışırlar. Bu baxımdan, İnsan kapitalının inkişafı Layihəsində insanlara investisiyanın vacibliyi əsaslandırılır, hakimiyyətin bütün səviyyələrində ardıcıl rəhbərliyin və koordinasiyanın, o cümlədən qeyri-münasib və ya səmərəsiz xərclər kimi mürəkkəb problemlərin həllinin, idarəetmə və xidmətlərin göstərilməsi sahəsində problemlərin, demoqrafik dinamikanın, siyasi qeyri-sabitlik və sosial münaqişələrin, eləcə də infrastruktur sahəsində boşluqların əhəmiyyəti xüsusi olaraq vurğulanır. Burada əsas strateji alət insan kapitalı indeksidir ki, bu da hər bir ölkədə vahid ümumiləşdirici göstərici əsasında insan kapitalının inkişaf səviyyəsi haqqında təsəvvür əldə etməyə imkan verir. İndeks hər hansı bir ölkədə doğulmuş uşağın yetkinlik yaşına çatmağa ümid edə biləcəyi insan kapitalının həcmi kimi müəyyən edilən, səhiyyənin lazımi keyfiyyəti və bu ölkədə təhsilin səviyyəsi ilə bağlı riskə düzəlişlə müəyyən edilən növbəti nəsil insan kapitalının inkişaf səviyyəsini ölçür. İndeks üç komponentdən ibarətdir:

1. Yaşamaq. Bu komponent bu gün doğulan uşağın rəsmi təhsil sistemində İnsan kapitalının toplandığı ana qədər yaşaması zərurətini əks etdirir. Yaşama səviyyəsi 5 yaşınadək uşaqların ölümü ilə bağlı məlumatlara əsasən ölçülür.
2. Məktəbdə gözlənilən təlim müddəti, təlim nəticələrinə korrektirovka edilmişdir. Uşağın 18 yaşına qədər əldə edə biləcəyi təhsilin həcmi və keyfiyyəti haqqında məlumatlar birlikdə istifadə olunur, yəni uşağın məktəbdə oxuduğu şeylər haqqında məktəblilərin təlim nailiyyətlərinin beynəlxalq testlərində ölkənin göstəricilərinə əsasən istifadə olunur. Birləşdirilmiş bu məlumatlar onun keyfiyyətinə düzəliş ilə il ərzində gözlənilən təhsilin davametmə müddətini hesablamağa imkan verir. Tədrisin keyfiyyətinə düzəlişlər nəticəsində bu komponent məktəblərdə təqribən eyni müddət ərzində təhsilin verilməsinə baxmayaraq bəzi ölkələrdə uşaqların digər ölkələrdəki uşaqlara nisbətən daha az bilik alması faktını əks etdirir.
3. Sağlamlıq göstəricisi. Ölkə sakinlərinin ümumi sağlamlıq vəziyyətini qiymətləndirmək üçün bu komponent iki göstəricidən istifadə edir: 1) 5 yaşına çatmamış uşaqlar arasında aşağı boyartımının yayılması; 2), özünün 60 yaşına kimi yaşaya biləcək, həmçinin15 yaşlıların bir hissəsi kimi müəyyən edilən yaşlı nəslin yaşama göstəricisi. Birinci göstərici kiçik məktəbəqədər yaşlı uşağın sağlamlıq vəziyyətini əks etdirir; ikinci göstərici bu gün dünyaya gələn uşağın yetkinlik yaşına malik ola biləcəyi sağlamlıq vəziyyətinin ölçülməsi kimi istifadə olunur.

Bu üç göstərici 0-dan 1-ə qədər ədədi dəyərlər şəklində standartlaşdırılır və orta həndəsi indeksin ümumi göstəricisidir. İndeksin bu gün doğulan uşağın tam sağlamlığa və tam təhsil kursuna ümid edə biləcəyi ölkə üçün etalon əhəmiyyəti 1 olacaqdır. Müvafiq olaraq, İnsanın inkişaf indeksinin 0,70-ə bərabərlik dəyəri göstərir ki, bu gün doğulan uşağın gələcək məhsuldarlığı onun tam təhsil kursunu keçərək tam sağlamlığa malik ola biləcəyi göstəricidən 30 faiz aşağı olacaqdır.

**Bəzi ölkələrdə İnsan Kapitalı İndeksinin reytinqi**

Aşağıda İnsan Kapitalı İndeksinin reytinqi üzrə 174 dünya ölkəsinin məlumatlarının müqayisəli təhlili əsasında ilk on beşlikdə yer almış ölkələrin cədvəli verilir (cədvəl 1).

Məlumatların təhlili göstərir ki, 174 ölkə içərisində ilk 15-likdə yer almış ölkələrin insan kapitalı indeksi göstəricisi 0,77-0,88 hüdudunda dəyişmişdir. Belə ki, insan kapitalı indeksi göstəricisi üzrə birinci sırada yer almış Sinqapurla 15-ci sırada yer almış Norveç arasında 0,11 vahid fərq vardır. Həmçinin bu göstərici üzrə birinci sırada yer almış Sinqapurla keçmiş sovetlər ittifaqı ölkələri işərisində ilk sırada yer almış Estoniya (reytinq sırası 12) arasında 0,10 vahid fərq vardır.

Həmin məlumatlar əsasında keçmiş sovetlər ittifaqı ölkələrinin reytinq cədvəlini nəzərdən keçirək (cədvəl 2).

*Cədvəl 1.*

***Bəzi dünya ölkələrində İnsan Kapitalı İndeksinin reytinqi***

| Reytinq | Ölkələr | İnsan Kapitalı İndeksi |
|---|---|---|
| 1 | Sinqapur | 0,88 |
| 2 | Honkonq | 0,81 |
| 3 | Yaponiya | 0,80 |
| 4 | Cənubi Koreya | 0,80 |
| 5 | Kanada | 0,80 |
| 6 | Finlandiya | 0,80 |
| 7 | Makao | 0,80 |
| 8 | İsveç | 0,80 |
| 9 | İrlandiya | 0,79 |
| 10 | Hollandiya | 0,79 |
| 11 | Böyük Britaniya | 0,78 |
| 12 | Estoniya | 0,78 |
| 13 | Yeni Zelandiya | 0,78 |
| 14 | Sloveniya | 0,77 |
| 15 | Norveç | 0,77 |

*Qeyd: [7] əsasında müəllif tərtib etmişdir.*

*Cədvəl 2.*

***Keçmiş sovetlər ittifaqı ölkələrində İnsan Kapitalı İndeksinin reytinqi***

| Reytinq | Ölkələr | İnsan Kapitalı İndeksi |
|---|---|---|
| 12 | Estoniya | 0,78 |
| 33 | Latviya | 0,71 |
| 34 | Litva | 0,71 |
| 36 | Belorus | 0,70 |
| 41 | Rusiya | 0,68 |
| 53 | Ukrayna | 0,63 |
| 55 | Qazaxstan | 0,63 |
| 57 | Özbəkistan | 0,62 |
| 72 | Qırğızıstan | 0,60 |
| 79 | Moldova | 0,58 |
| 82 | Ermənistan | 0,58 |
| 83 | Azərbaycan | 0,58 |
| 85 | Gürcüstan | 0,57 |
| 111 | Taciksitan | 0,50 |
| - | Türkmənistan | - |

*Qeyd: [7] əsasında müəllif tərtib etmişdir.*

Keçmiş sovetlər ittifaqı ölkələrinin insan kapitalı indeksi göstəricisinin təhlilindən görünür ki, burada birinci sırada yer almış Estoniya ilə 14-cü sırada yer almış Tacikistan arasında 0, 28 vahid fərq vardır. Onu da qeyd edək ki, müqayisə edilən Estoniya ilə Tacikistanın reytinq sırasında 99 sıra fərq mövcuddur. Müqayisə edilən ölkələr üzrə qeytinq sırasına nəzər salsaq görərik ki, 12-ci və 111-ci sırada yer almış keçmiş sovetlər ittifaqı ölkələri içərisində orta reytinq sırasına malik ölkələrə Qazaxstan (0,63), Özbəkistan (0,62) və Qırğızıstan (0,60) aiddir. Bu ölkələr üzrə ilk beşlikdə Estoniya (0,78), Latviya (0,71), Litva (0,71), Belorus (0,70) və Rusiya (0,68) yer almışdır. Həmin sıralamada 10-14-cü sıralarda yer almış ölkələr sırasında Azərbaycan (0,58) da vardır.

Lakin ümumi 174 ölkə içərisində Azərbaycanın reytinq sıralanması təxminən orta sıralardan bir neçə pillə yuxarıda yerləşmişdir.

İnsan Kapitalı İndeksinin reytinqi üzrə 174 ölkə içərisində son onluq ölkələrə Sierra-Leone (0,36), Anqola (0,36), Mozambik (0,36), Nigeriya (0,36), Liberiya (0,32). Mali (0,32), Niger (0,32), Cənubi Sudan (0,31), Çad (0,30) və Cənubi-Afrika Respublikası (0,29) aid edilmişdir. Beləliklə, reytinq sıralanmasında ilk sırada yer alan Sinqapur ilə ən son sırada yer alan Cənubi-Afrika Respublikası ölkələri arasında reytinq göstəricisində 0,59 vahid azalma sırası ilə meyletmə vardır [7].

**Həyat səviyyəsinin resurs təminatının inteqral indiqatoru**

Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul (ÜDM) (bu göstərici KDR-də 2020-ci ilə qədər əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəricisi hesab edilmişdir) alıcılıq qabiliyyəti pariteti (AQP) ilə hesablanır. Bu göstərici 2021-ci ildə BVF və DB-nin hesablamaları əsasında 185 ölkə üzrə tərtib edilmişdir. Həmin sıralamaya görə minimum göstərici Cənubi Sudanda (230 ABŞ dolları) və maksimum göstərici Lüksemburqda (131301 ABŞ dolları) olmuşdur. Hər nəfərə düşən ümumi daxili məhsul standartının ölkələr üzrə təsnifatı aşağıdakı kimi qəbul edilmişdir: yüksək gəlirli ölkələr-10 min dollar və yuxarı (66 ölkə); orta gəlirdən yuxarı gəlirli ölkələr-3250-dən 10 min dollarıdək (62 ölkə); orta gəlirdən aşağı gəlirli ölkələr- 800 dollardan 3250 dollarıdək (43 ölkə); aşağı gəlirli ölkələr- 800 dollardan az (14 ölkə). Beləliklə, 185 ölkə üzrə yüksək gəlirli ölkələrin xüsusi çəkisi 35,7%; orta gəlirdən yuxarı gəlirli ölkələrin xüsusi çəkisi 33,5%; orta gəlirdən aşağı gəlirli ölkələrin xüsusi çəkisi 23,3%; aşağı gəlirli ölkələrin xüsusi çəkisi 7,5% təşkil etmişdir (cədvəl 3).

*Cədvəl 3.*

***Dünya ölkələrində əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi***

| S/N | Gəlirlilik səviyyəsinə görə ölkələrin təsnifatı | Hər nəfərə düşən ÜDM-in ölkələrin təsnifatına görə həcmi | Təsnifat üzrə ölkələrin sayı | Ümumi tədqiq edilən ölkə sayında xüsusi çəki |
|---|---|---|---|---|
| 1 | Yüksək gəlirli ölkələr | 10 min dollar və yuxarı | 66 | 35,7% |
| 2 | Orta gəlirdən yuxarı gəlirli ölkələr | 3250 dollardan 10 min dollarıdək | 62 | 33,5% |
| 3 | Orta gəlirdən aşağı gəlirli ölkələr | 800 dollardan 3250 dollarıdək | 43 | 23,3% |
| 4 | Aşağı gəlirli ölkələr | 800 dollardan az | 14 | 7,5% |
| Cəmi | | | 185 | 100% |

*Qeyd: [8] əsasında müəllif tərtib etmişdir.*

Məlumatların təhlili göstərir ki, ölkələr üzrə əhalinin həyat səviyyəsinin resurs təminatının inteqral indiqatoru kimi hər nəfərə düşən ümumi daxili məhsulun alıcılıq qabiliyyəti pariteti hesablanmış və ölkələr dörd qrupda cəmləşdirilmişdir: 1) Hər nəfərə düşən ÜDM-in həcmi 10 min və yuxarı olan ölkələr; 2) Hər nəfərə düşən ÜDM-in həcmi 3250 dollardan 10 min dollarıdək olan ölkələr; 3) Hər nəfərə düşən ÜDM-in həcmi 800 dollardan 3250 dollarıdək olan ölkələr; 4) Hər nəfərə düşən ÜDM-in həcmi 800 dollardan az olan ölkələr.

**Əhali gəlirlərinin bölüşdürülməsinin beynəlxalq inteqral indiqatoru**

Cini indeksi əhalinin müxtəlif qruplarında pul gəlirlərinin ümumi həcminin konsentrasiyasını xarakterizə edir. Hər il Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) və Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən müxtəlif ölkələr üzrə hər nəfərə düşən ÜDM və Cini indeksinin standartları hesablanılır. Cini indeksinin qiymətləri dünya ölkələrində gəlirlərin qeyri-bərabər bölgüsünün müqayisəsini əks etdirir və bu göstərici hər bir ölkənin dünya ölkələri içərisində (ölkələrin

ümumi sayı 185) tutduğu sırasını müəyyən edir: hər nəfərə düşən ÜDM-in həcmi 5 min dollardan az olan ölkələr (87 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,300-dən çox; hər nəfərə düşən ÜDM-in həcmi 5-10 min dollar hüdudunda olan ölkələr (32 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; hər nəfərə düşən ÜDM-in həcmi 10-20 min dollar hüdudunda olan ölkələr (24 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,380-dən çox; hər nəfərə düşən ÜDM-in həcmi 20-30 min dollar hüdudunda olan ölkələr (11 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; hər nəfərə düşən ÜDM-in həcmi 30 min dollardan çox olan ölkələr (31ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,330-dan çox olması hesablanmışdır.

İPİİ, hər nəfərə düşən ümumi daxili məhsul və Cini indeksi üzrə Azərbaycanın qiymətləndirildiyini əks etdirən bu göstəricilər və onların ötən ilə nisbətən artma və ya azalma meyli cədvəl 4-də verilmişdir.

*Cədvəl 4.*

***Azərbaycanın İPİİ, hər nəfərə düşən ÜDM və Cini indeksi göstəriciləri***

| S/N | İnteqral indiqatorlar | 2018-ci il | | | 2021-ci il | | |
|---|---|---|---|---|---|---|---|
| | | Ölkənin göstərici üzrə qiyməti | Dünya ölkələri içərisində tutduğu sıra | Əvvəlki ilin qiymətindən meyletmə, (+) və ya (-) | Ölkənin göstərici üzrə qiyməti | Dünya ölkələri içərisində tutduğu sıra | Əvvəlki ilin qiymətindən meyletmə, (+) və ya (-) |
| 1 | İnsan potensialının inkişaf indeksi (İPİİ) | 0,747 | 84 | +0,001 | 0,759 | 83 | +0,012 |
| 2 | Hər nəfərə düşən ümumi daxili məhsul, ABŞ dolları | 4132 | 106 | +485 | 5167 | 95 | +1035 |
| 3 | Cini indeksi | 0,337 | - | +0,017 | 0,357 | - | +0,020 |

*Qeyd: [7-9] materialları əsasında müəllif tərtib etmişdir*

Məlumatlardan göründüyü kimi, Azərbaycan insan potensialının inkişaf indeksinə görə orta göstəricili ölkələr sırasında 60-86-cı sıradakı ölkələr içərisində 83-ci yeri tutmuşdur. Hər nəfərə düşən ÜDM-in həcminə görə isə 185 ölkə içərisində 95-cı sırada yer almışdır.

Əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərlik hüdudunun qiyməti 2018-ci ilə nisbətən (0,337) 2021-ci ildə 0,357 təşkil etmiş və müqayisə dövründə meyletmə (+0,020) olmuşdur.

**Regionlar üzrə həyat səviyyəsinin qeyri-bərabərliyinin qiymətləndirilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi**

Azərbaycanda əhalinin etibarlı sosial müdafiəsinin təşkili məqsədi ilə yeni Dövlət Proqramı hazırlanır və burada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizdə sığorta-pensiya sistemi daha da təkmilləşdiriləcək, könüllü sosial sığortalanmanın və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti ilə bağlı məsələlər öz həllini tapacaq, işləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əməkhaqqı məbləğinin tədricən minimum yaşayış standartlarına çatdırılması istiqamətində tədbirlər görüləcək, əhalinin gəlirlər üzrə diferensiasiyasının azaldılmasına nail olunacaqdır [1,səh.28-30].

Beləliklə, yuxarıda qeyd edilmiş insan potensialının inkişafı, adambaşına düşən ÜDM-in miqdarı və Cini indeksi kimi əhalinin həyat səviyyəsinin sosial standartlarının tətbiqi ilə əhalinin həyat

səviyyəsinin bölgələrdə qeyri-bərabərliyini xarakterizə edən aşağıdakı indiqatorların tətbiq edilməsini məqsədəuyğun hesab edirik: -pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı ($k_{p.g.a.q}$); pul gəlirləri üzrə kasıblıq əmsalı ($k_{p.g.k.ə}$).

Pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı YM-yə daxil olan əmtəə və xidmətlərin əldə edilməsi məqsədi ilə ödənilən pul gəlirini ifadə edir [6]. 2021-ci ilin göstəricilərinə əsasən Azərbaycanda əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı 2,82 təşkil etmişdir.

İkinci göstərici olan əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalı gəlirləri ölkə üzrə YM-dən (2022-ci il üçün 210 manat) aşağı olan əhali sayının ümumi əhalinin sayına olan nisbəti ilə hesablanılır:

$$K_{p.g.k.ə}=\frac{N_{g.<YM}}{N_{Ü}}; \quad (3)$$

burada: $K_{p.g.k.ə}$- əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalı;

$N_{g.<YM}$-gəlirləri YM-dən aşağı olan əhalinin sayı, milyon nəfər;

$N_{Ü}$-ümumi əhalinin sayı, milyon nəfər.

2020-ci ilin göstəriciləri əsasında əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalının qiyməti (3) formulası əsasında hesablanaraq $K_{p.g.k.ə}$ =0,11 müəyyən edilmişdir.

Azərbaycanda əhalinin həyat səviyyəsinin diferensiallaşdırılması əmsalları cədvəl 5-də verilmişdir.

*Cədvəl 5.*

***Əhalinin həyat səviyyəsinin diferensiallaşdırılması əmsalları***

| S/N | Həyat səviyyəsi indiqatorları | Əhalinin həyat səviyyəsinin diferensiallaşdırılması əmsalları | |
|---|---|---|---|
| | | 2018-ci il | 2020-ci il |
| 1 | İnsan potensialının inkişaf indeksi (İPİİ) | 0,747 | 0,759 |
| 2 | Gəlirlər üzrə kasıblıq əmsalı ($k_{p.g.k.ə}$) | 0,12 | 0,11 |
| 3 | Əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı ($k_{p.g.a.q}$) | 2,98 | 2,82 |
| 4 | Cini indeksi | 0,337 | 0,357 |
| 5 | Hər nəfərə düşən ümumi daxili məhsul, ABŞ dolları | 4132 | 5167 |

*Qeyd: cədvəl [7-10] məlumatları əsasında müəllif tərtib etmişdir*

Məlumatların təhlilindən göründüyü kimi, Azərbaycanda əhalinin həyat səviyyəsini əks etdirən göstəricilərin bəzilərində qeyri-bərabərlik azalmışdır, xüsusilə bu azalma gəlirlər üzrə kasıblıq əmsalı və əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalında nəzərəçarpacaq dərəcədə olmuşdur. Belə ki, bu azalma gəlirlər üzrə kasıblıq əmsalında 8,3% (0,12-0,11/0,12), alıcılıq qabiliyyəti əmsalında isə 5,4% (2,98-2,82/2,98) təşkil etmişdir. Eyni zamanda əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərliyi əks etdirən Cini indeksinin qiymətində müqayisə edilən dövrdə 0,020 qədər artım əldə edilmişdir. Sonuncu göstərici olan hər nəfərə düşən ümumi daxili məhsulda isə 25,0% və ya 1035 ABŞ dolları həcmində artımın olduğunu müşahidə etmək mümkündür.

## *Nəticə*

Təhlil göstərir ki, Azərbaycan bölgələrində əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti arasında fərq çoxdur və bu göstəricinin qiyməti bir sıra şəhərlərdə (Bakı, Xırdalan ş., Naxçıvan ş., Gəncə ş., Sumqayıt ş., Mingəçevir ş. və s. digər bölgələrə nisbətən yüksəkdir. Bu göstəricinin qiymətinin qeyd edilən şəhərlərdə yüksək olması əhalinin işləmək məqsədi ilə digər bölgələrdən bu şəhərlərə axınına şərait yaradır və beləliklə də urbanizasiya prosesinin sürətlənməsinə təsir göstərir. Bu prosesin sürətlənməsinin qarşısının alınması üçün regionların sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi üzrə 2019-2023-cü illər üzrə Dövlət Proqramları hazırlanmış və həyata keçirilməsi istiqamətləri müəyyən edilmişdir.

2020-ci ildə Azərbaycan əhalisinin həyat səviyyəsi göstəricilərinə aşağıdakı qiymətləndirməni vermək olar (müəllif tərəfindən müəyyənləşdirilmiş qiymətləndirilmə):

1. Respublika üzrə müzdla işləyənlərin orta nominal əməkhaqqı 707,7 manat və ya ümumi yaşayış minimumunun 3,37 mislini təşkil edir.

2. 2020-ci ildə əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı $k_{p.g.a.q}$= 2,82 olmuşdur ki, bu göstərici müqayisədə çox da yüksək göstərici hesab edilmir.

3. Gəlirlər üzrə kasıblıq əmsalı $k_{p.g.k.ə}$=0,11.

4. Cini indeksi 0,357.

Şübhəsiz ki, əhalinin həyat səviyyəsi üzrə tədqiqatların genişləndirilməsində, həmçinin ölkə üzrə bu göstərici indikatorlarının ölçülməsində ixtisaslı cəmiyyətin müzakirəsinə ehtiyac vardır. Bu qeyd etdiklərimiz ölkədə real vəziyyətin müəyyən edilməsinə, əhalinin həyat səviyyəsinin nəzəri, metodoloji və metodiki aspekdən öyrənilməsinin genişləndirilməsinə yeni impuls verməklə elm və təcrübənin qarşılıqlı əlaqəsinə, qiymətləndirmənin statistik və sosioloji metodlarının və uzunmüddətli inkişaf Konsepsiyasının həyata keçirilməsinə imkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 30 iyun 2020-ci il
2. Бобков В. Р. Оценка качества и уровня жизни населения. М., Вестник ВГУ. Серия: Экономика и управление. 2009. №2, с.34-36
3. Социальные стандарты качества жизни: сб. статей /под ред. А. В. Очировой и др.- Москва: МАКС Пресс. 2008, стр.15-55
4. Клинова М. А. Уровень жизни городского населения РСФСР в отечественной историографии. Екатеринбург. 2014, с.353
5. Квалиметрия жизни /Г. Г. Азгальдов и др. Ижевск: Изд-во Института экономики и управления УдГУ. 2006, стр.210
6. Уралов В.М. Уровень нашей жизни : аналит. справ. М., 1995, с.18-20
7. **Рейтинг стран мира по индексу человеческого капитала. World Bank: Human Capital Index, 2020.**
8. Список стран по номинальному ВВП на душу населения. Список МВФ, Октябрь 2021
9. https://ru.wikipedia.org/wiki/ Список_стран_по_индексу_человеческого_развития
10. https://ru.wikipedia.org/wiki/ Список_стран_по_ВВП_(ППС)_на_душу_населения
11. https://ru.wikipedia.org/wiki/Список_стран_по_индексу_Джини
12. https://az.wikipedia.org/wiki/Minimum_istehlak_səbəti
13. http://www.e-qanun.az/framework/41035
14. http://www.stat.gov.az/
15. https://az.trend.az/azerbaijan/society/2284248.html

*магистр Нурлан Я. Имамалиев*

*Научный руководитель: д.э.н. Вилаят И. Исмайлов*

## Оценка уровня жизни населения с применением соответствующих индигаторов

*Резюме*

**Цель исследования** – Выявить основные преимущества применения соответствующих индикаторов при оценке уровня жизни населения. Обоснование нового методического подхода к оценке компонентов, отражающих уровень жизни населения.

**Методология исследования** – В исследовательской работе использованы методы сравнительного анализа, синтеза и обобщения.

**Прикладное значение исследования** – Формирование теоретико-концептуальных и практических подходов к оценке уровня жизни населения. Полученные результаты могут быть использованы при исследовании проблем в этом направлении.

**Результаты исследования** – Исследование показывает, что в регионах Азербайджана существует большая разница между покупательной способностью денежных доходов населения, и стоимость этого показателя в ряде городов выше, чем в других регионах. Высокая стоимость этого показателя в упомянутых городах создает условия для притока населения в эти города из других регионов с целью работы и, таким образом, влияет на ускорение процесса урбанизации. На наш взгляд, существует потребность в расширении исследований уровня жизни населения, а также в обсуждении квалифицированного сообщества для измерения показателей этого показателя по всей стране.

**Оригинальность и научная новизна исследования** – определяются и анализируются нормативные критерии на основе минимальных гарантий и нормативов, охватывающих уровень жизни населения. Одновременно выдвигаются обоснованные предложения по решению проблем оценки уровня жизни населения в разных странах.

***Ключевые слова: население, уровень жизни, минимальные гарантии, социальные стандарты, критерии, индекс человеческого капитала, рейтинг, оценка.***

***master Nurlan Y. Imamaliyev,***

***Scientific leader: Vilayat I. Ismailov***
***Doctor of Economics***

## Assessment of the standard of living of the populatıon with the use of appropriate indigators

***Summary***

**The purpose of the study** – is to identify the main advantages of using appropriate indicators in assessing the standard of living of the population. Substantiation of a new methodological approach to the assessment of components reflecting the standard of living of the population.

**Research methodology** – Methods of comparative analysis, synthesis and generalization are used in the research work.

**The practical significance of the research** – İs the formation of theoretical, conceptual and practical approaches to assessing the standard of living of the population. The results obtained can be used in the study of problems in this direction.

**The results of the study** – The study shows that in the regions of Azerbaijan there is a big difference between the purchasing power of the monetary income of the population, and the cost of this indicator in a number of cities is higher than in other regions. The high cost of this indicator in these cities creates conditions for the influx of people to these cities from other regions for the purpose of work and, thus, affects the acceleration of the urbanization process. In our opinion, there is a need to expand research on the standard of living of the population, as well as to discuss a qualified community to measure the indicators of this indicator throughout the country.

**Originality and scientific novelty of the research** – Normative criteria are determined and analyzed on the basis of minimum guarantees and standards covering the standard of living of the population. At the same time, reasonable proposals are put forward to solve the problems of assessing the standard of living of the population in different countries.

***Key words: population, standard of living, minimum guarantees, social standards, criteria, human capital index, rating, estimation.***